Səs.- 2023.- 17 oktyabr, №189.- S.11.

# “Heydər Əliyev 100: Mühəndislik hakatonu”

*YAP və ADNSU-nun birgə təşkilatçılığı ilə keçirilən intellektual yarışın açılış mərasimi olub*







***Oktyabrın 14-də Yeni Azərbaycan Partiyasının (YAP) və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev 100: Mühəndislik hakatonu” intellektual yarışın açılış mərasimi keçirilib.***



Azərbaycan-Fransız Universitetində keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektor əvəzi Vazeh Əskərov Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə 2023-cü ilin “Heydər Əliyev İli” elan olunduğunu, Ümummilli Liderin anadan olmasının 100 illiyinin respublikamızda böyük təntənə ilə qeyd edildiyini bildirib. Ulu Öndərin gənclərə hərtərəfli qayğısından bəhs edən Vazeh Əskərov qeyd edib ki, Heydər Əliyev siyasətində gənclərlə iş daim xüsusi yer tutub, gənclərin yüksək təhsilə, bilik və bacarıqlara nail olmaları üçün məqsədyönlü addımlar atılıb. Hazırda bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu siyasətin nəticələri gənclərimizin uğurlarında öz əksini tapır.

V.Əskərov gənclərin inkişafında, bilik və bacarıqlarının artırılmasında mühüm rol oynayan belə intellektual yarışların təşkilinin əhəmiyyətini vurğulayıb, yarışda iştirak edən komandalara uğurlar arzulayıb.

YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Tağıyev anadan olmasının 100-cü ildönümünü qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən bəhs edib. O, Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində son 20 il ərzində Azərbaycanın möhtəşəm nailiyyətlər qazanaraq tərəqqi və Zəfər zirvəsinə yüksəldiyini, qüdrətli və qalib ölkəyə çevrildiyini vurğulayıb.

Ə.Tağıyev bildirib ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu siyasətin nəticəsində ölkəmizdə intellektual, vətənpərvər, bilikli və bacarıqlı gənc nəsil formalaşıb. Onun sözlərinə görə, ölkəmizin ən güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasında da böyük gənclər ordusu birləşib. Əhliman Tağıyev ali məktəb tələbələri üçün təşkil edilən intellektual yarışın gənclər üçün faydalı olacağına əminliyini ifadə edib.

Kapital Bankın Proqramlaşdırma üzrə funksional lideri Fariz Lətifov da çıxışında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunan intellektual yarışın gənclərimizin innovativ potensialının inkişafındakı əhəmiyyətindən bəhs edib. Daha sonra yarışın qaydaları və təlimatlar barədə “Eazi Start” startup və innovasiya mərkəzinin koordinatoru Elviz İsmayılov və UFAZ-ın Kompüter Elmləri Proqramı üzrə koordinatoru Samer El Zant məlumat veriblər.

Qeyd edək ki, intellektual yarışda 21 universitetdən 30 komanda təmsil olunub. 120 tələbənin iştirak etdiyi yarışlar 14-15 oktyabr tarixində keçirilib.